***Möcüzələr…***

*Onlar nədir?*

*İsa hansı möcüzələri etdi və nə üçün bu qədər çox möcüzə etdi?*

*Biz Əhdi Cədiddə yazılmış möcüzələrə yaxından baxanda İsa və Ata Allah haqqında nəyi öyrənə bilərik?*

Nazaretli İsada, Allah, Kəlam "bəşər olub… aramızda məskən saldı" (Yəhya 1:14). Onun dövründə olan insanlar günbəgün Onu izlədiyinə görə Kim olduğunu və nə etdiyini müşahidə edə bilirdilər. Onlar İsanın kamil, günahsız həyatını və həmçinin Onun əməlləri vasitəsilə Allahın izzətini, əzəmətini, qüdrətini və səlahiyyətini gördülər. Onlar həmçinin Onun bütün insanlara, xüsusilə də cəmiyyətin səfilləri hesab edilən insanlara qarşı olan böyük məhəbbətini və rəhmini gördülər.

***İsa bizə Allahı göstərdi.***

Yəhya 14-cü fəsildə O, Öz şagirdlərinə dedi:

> *"Məni görən Atanı görmüş olur… Mən Atadayam, Ata da Məndədir, bu sözümə inanın".*

Sonra bunları əlavə etdi:

> ***"Heç olmasa o işlərə görə inanın"***. *(Yəhya 14:9,11)*

Bu kitabda olan dərslər ona görə verilmişdir ki, siz Məsih İsanı və Ata Allahı daha dərindən tanıyasınız. Bunu etdikcə, sizin Onun böyüklüyünə və sizə qarşı xeyirxahlığına olan imanınız artacaq.

> ***Xilaskarımız, yeganə Allaha Rəbbimiz İsa Məsih vasitəsilə əzəldən bəri, indi və əbədi olaraq izzət, əzəmət, qüdrət və səlahiyyət olsun! Amin. (Yəhuda 25)***

*Kitabı bu sayitdan pulsuz endirə bilərsiniz:* www.learnhisways.com

İsanın möcüzələri vasitəsilə Allahın böyüklüyünü kəşf etmək

İSANIN ARDICILLARI ÜÇÜN

**Həyat Dərsləri**

# İsanın möcüzələri vasitəsilə Allahın böyüklüyünü kəşf etmək

## Təklikdə və ya qrupda Allahın Kəlamı üzərində düşünmək üçün 32 dərs

"Bütün bəşərin Allahı Rəbb Mənəm. Mənim edə bilməyəcəyim bir şey varmı?" Yeremya 32: 27